وارلیق
VARLIQ
Dil, ədəbiyyat, Mədəniyyət və Cəmiyyət Araşdırmaları Dərgisi
Dil, Edebiyat ve Toplum Araştırmaları Dergisi
Journal of Language, Literature, Culture and Social Studies
İkinci Dönem. Sayı: 2025: 42(4), ss.81-91
Telif Haqqı©Varlıq Dergisi

Xatirələrdə Əbədi Yaşayacaq Şəxsiyyət

Səməd BAYRAMZADƏ [1]



Cavad Heyət şəxsiyyətini araşdırmaq və öyrənmək istəyən hər bir kəs ilk növbədə onun öz xalqı və milləti yolunda sərf etmiş olduğu çox dəyərli və çoxşaxəli fəaliyyət istiqamətlərinə diqqət yetirməlidir.

Şəxsən onunla tanışlığım 1992-ci ilin dekabr ayından başlayıb. Onunla görüşlərim, söhbətlərim, onun tövsiyyə və məsləhətləri, yazıları – kitabları, məqalələri, müsahibələri, polemikaları mənim həyata baxışlarımda, siyasi və elmi dünyagörüşümün formalaşmasında, zənginləşməsində xüsusi rol oynayıb.

Tehrana gəldiyimiz ilk günün (8 dekabr) səhəri C.Heyət Tehranda müvəqqəti yerləşdiyimiz "Azadi" otelində görüşümüzə gəldi və bizi Abbasabad xiyabanındakı "Əlborz" çilokababçısına nahara dəvət etdi. Yolda bildirdi ki, "həmin məkan bir zamanlar Quzeydəki Gədəbəy rayonundan mühacirət etmiş soydaşlarımıza məxsusdur və çox ləzzətli

[1] Tarix üzrə fəlsəfə doktoru, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsində şöbə müdirinin müavini.

yeməklər verirlər. Onların məkanında nahar etmək, görüşüb söhbətləşmək çox xoş olacaqdır. Axı onlar burada qəribdirlər, gözləri həmişə o taya baxıb. Sizləri görüb sevinəcəklər". Bizim İranla, yerli xalqla münasibətlərimiz Cavad Heyət körpüsü üzərindən beləcə başladı.

14 gün sonra –dekabrın 22-də bizi Tehranın Fələstin meydanına yaxın eyni adlı küçədəki mətəbunə (şəxsi klinikasına) dəvət etdi. Orada ilk dəfə canlı olaraq "Varlıq" məktəbinin bir neçə nəfər nümayəndəsi ilə tanış olduq və başa düşdük ki, bu ocaqda həm insanların sağlamlığı, həm də mədəniyyəti, mənəviyyatı, ədəbiyyatı, tarixi və kimliyi qorunur, inkişaf etdirilir, möhkəmləndirilir.

Dekabrın 25-də isə onunla Birinci Qarabağ savaşında yaralanmış Azərbaycan Respublikası Daxili İşlər nazirliyinin əsgər və zabitlərinin müalicə aldıqları "15 Xordad" xəstəxanasında olduq. Yaralılar onun gəlişinə o qədər sevinirdilər ki, sanki öz atalarını görürdülər. Həmin xəstəxanada C.Heyətin təşəbbüsü ilə 150 nəfərdən çox yaralımız müalicə alıb vətənə qayıtdılar. Dəfələrlə aeroportda onların qarşılanması, yerləşdirilməsi və yola salınması işlərində doktorla bir yerdə oldum, onun fədakarlıqlarının şahidi oldum. Gecə saat 3-də də ona zəng edib desəydilər ki, yaralılardan birinin narahatlığı vardır, zamana baxmazdı, dərhal özünü ora çatdırardı. Onun yaralılara qayğısı haqqında cild-cild kitablar yazmaq olar...



Doktor Cavad Heyətin evinde

Cavad Heyət bütün həyatını və fəaliyyətini əsas sənəti olan cərrahlığa, elmi araşdırmalara, millətinin və xalqının sağlamlığını qorumağa həsr edib. Tibb sahəsində fəaliyyəti dövründə 25 mindən çox müxtəlif cərrahiyyə əməliyyatı aparmış, 1962-ci ildə İranda açıq ürək əməliyyatını ilk dəfə uğurla həyata keçirmiş və 1963-cü ildən Beynəlxalq Cərrahiyyə cəmiyyətinin İran nümayəndəsi seçilib və 60-dan yuxarı milli və beynəlxalq cərrahiyyə toplantılarında iştirak edib, şəxsi təcrübələrinə və elmi araşdırmalarına əsaslanaraq, maraqlı və dərin məzmunlu məruzələrlə çıxışlar edib. Cavad Heyət 1969-cu ildə İranda ilk dəfə ürək qapaqlarını dəyişdirib və həmin ildə də Tehranda ilk dəfə insanda böyrək dəyişdirmə əməliyyatını uğurla həyata keçirib, nəticədə "Birinci Dərəcəli Əmək Ordeni" ilə təltif edilib. 1963-cü ildən İranda fəaliyyəti 12 il davam edən "Daneşe pezeşki" ("Tibbi bilik") jurnalını nəşr edən dr. Cavad Heyət elmi-nəzəri və əməli uğurlarına görə

1983-cü ildə Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü seçilib O, uzun illər Tehran Azad İslam Universitetinin Cərrahlıq kafedrasına da rəhbərlik edib. Dr. Cavad Heyət cərrahiyyəyə dair ikicildlik dərsliyin və 10-dan artıq elmi məqalənin müəllifidir. 1956-cı ildə damarlarda qan laxtalanması - tromboz haqqında elmi monoqrafiyasını və 1965-ci ildə isə İranda "Ümumi cərrahlıq" adlı ilk dərs kitabını çap etmişdir. Onun cərrahiyyə elminə aid məqalələri İran, Fransa və Amerikanın tibb jurnallarında çap edilmişdir. O, tibb elmi sahəsində böyük cərrah-alim kimi ad qazanıb.

Cavad Heyət eyni zamanda türk dili və ədəbiyyatının görkəmli tədqiqatçısı idi. Dünyanın mötəbər universitetləri onu Orta Şərqin ən böyük tədqiqatçılarından biri kimi tanıyırdılar. 35 il Tehranda davamlı olaraq Azərbaycan və fars dillərində "Əncüməni-Azərbaycan" (*Azərbaycan cəmiyyəti*) adlı ədəbi və mədəni qrupun aylıq orqanı kimi "Varlıq" dərgisini nəşr etməklə böyük ədəbi bir məktəbin əsasını qoydu. Hələ 1979-cu il aprel ayının 21-dən nəşrə başlayan "Varlıq" dərgisi öz səhifələrində həmin ilin mart ayının 31-də referendum yolu ilə İslam Respublikası elan edilmiş İranda cəmiyyətin gələcək milli-mədəni siyasətini və onun istiqamətlərini müəyyənləşdirən əsaslı və gerçəkliyə uyğun təkliflərlə çıxış etdi. "Varlıq" dərgisi elə ilk sayında öz milli ruhunu və məzmununu beləcə bəyan etdi: "Azərbaycan xalqı tarix boyu İranda yaşayan ayrı-ayrı xalqlarla birlikdə, vahid bir taleyə bağlı olduğu müştərək bir tarix və mədəniyyət yaratdığı halda, hər bir əsil xalq kimi öz milli varlığını, dilini, mədəniyyətini, xislət və kimliyini saxlayıb".

"Varlıq" dərgisinin ilk sayının dərc edilməsindən 8 ay sonra, 1979-cu ilin dekabr ayında qəbul edilən İran İslam Respublikasının Əsas Qanununun 15 və 19-cu maddələrində bu istək və arzular öz rəsmi əksini tapdı. 19-cu maddə isə İran

xalqlarına 15-ci maddədə verilən bu hüququ daha da möhkəmləndirir və təsdiq edirdi: "İran xalqı hansı etnik qrup (qövm) və qəbilədən asılı olmayaraq bərabər hüquqa malikdir, rəng, irq, dil və bu kimi amillər kimsəyə üstünlük (imtiyaz) vermir". Professor dr. Cavad Heyət də bu qanunlara söykənərək "Varlıq" dərgisini 35 il yorulmadan müntəzəm şəkildə öz vəsaiti hesabına nəşr etdirib. Onun dostlarının və məsləkdaşlarının köməyi ilə yaranan və misilsiz tarixi missiyanı yerinə yetirən "Varlıq" ədəbi məktəbi özünün ədəbi-türkoloji fəaliyyəti, Azərbaycan türk dilini və ədəbiyyatını, eyni zamanda islam maarifini silsilə məqalələrlə yaymaqla bu sahədə bir akademiyanın görə biləcəyi işi görüb. Cavad Heyətin həm İrandakı, həm də Quzey Azərbaycandakı fəaliyyəti azərbaycanlıların milli şüurunun formalaşmasında mühüm amillərdən biri kimi qiymətləndirilməlidir.

Dr.Cavad Heyətin zəngin və çoxşaxəli səmərəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və eləcə də islamşünaslığa dair tədqiqatları mühüm yer tutur. O, ana dili, ədəbiyyatı, tarixi və folkloru barədə 7 cild kitab və 250-dən çox məqalə nəşr etdirib. Məqalələri beş dildə İran, Azərbaycan, Türkiyə, Fransa və Amerika mətbuatında çap olunub və 7 kitabı isə (5-i kiril və 2-si latın əlifbası ilə) Bakıda nəşr edilib.

1980-ci ildən sonrakı dövrdə dr. Cavad Heyət Azərbaycan ədəbiyyatı və xüsusilə türkçülüyə aid bir-birinin ardınca bir neçə kitab yazıb çap etdirir. Onun "Azərbaycan şifahi xalq ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı tarixinə bir baxış" (iki cilddə) adlı kitablarının İranda ana dilində nəşri bütün elmi və ictimai dairələrdə çox müsbət qarşılanmaqla yadda qalan ədəbi-tarixi hadisə oldu. Onun 1984-1986-cı illər arasında fars dilində yazdığı və çap etdirdiyi "Müqayisət-ül-lüğəteyn" (İki

dilin müqayisəsi), “Tarix-e zəban və ləhceha-ye torki” (Türk dili və ləhcələrinin tarixi), “Neqahi be tarix və fərhəng-e torkan” (Türklərin tarix və mədəniyyətinə bir baxış) adlı kitablar ən yüksək dövlət məqamları tərəfindən çox müsbət qarşılandı.

Dr. Cavad Heyət “Türk dili və ləhcələrinin tarixi” və “Türklərin tarix və mədəniyyətinə bir baxış” kitablarını İran İslam Respublikası prezidentinə göndərdikdən sonra onun mədəniyyət müşaviri cənab Məhəmməd Cavad Höccəti Kirmani tərəfindən bir təşəkkür məktubu almışdı və orada müəllifin İran xalqları üçün göstərdiyi elmi-mədəni və ədəbi xidmətlərinə xüsusi qiymət verilirdi: “... kitablarınız çatdı və prezidentin mübarək nəzərindən keçdi. Mənə buyurdular ki, kitablarınızda və “Varlığ”ın saylarındakı məqalələrinizdə apardığınız qiymətli və faydalı araşdırmalara görə Sizə prezidentin təşəkkürünü çatdırım.

“Varlıq” dərginizin və əsərlərinizin hər biri İran İslam Vətəninin ədəbiyyat tarixində yeni səhifələr açmış, Azərbaycan türkcəsini və qeyrətli azərbaycanlıların dərin məzmunlu ədəbiyyatını təzədən dirçəltmişdir. Arzu olunur ki, “Varlıq”dakı məqalələrin inqilabi və islami rəngi daha çox olsun. ... Sizə - dəyərli insan və alimə elmi-mədəni və ədəbi fəaliyyətinizdə ulu Tanrıdan sonsuz uğurlar diləyirəm”. Bu, Cavad Heyət şəxsiyyətinə onun sağlığında ölkəsinin ən yüksək məqamlarından biri tərəfindən yaradıcılığına, xalqı və milləti yolunda çəkdiyi zəhmətlərə və göstərmiş olduğu fədakarlığa verilən yüksək qiymət idi. Ona görə də dr. Cavad Heyət İrandakı 35 milyonluq azərbaycanlıların milli və dövlət şüurunu düzgün əlaqələndirmək və istiqamətləndirmək məqsədilə çox qürurla deyərdi ki, “Fəxr edirəm ki, türkəm və Vətənim də İrandır”.

Dr. Cavad Heyət Azərbaycan türklərinin milli şüurunun inkişafı, Azərbaycan ədəbi dilinin inkişafı və

yayğınlaşdırılması, İranda Pəhləvi dönəmindən etibarən başlayan və hələ də davam edən tarixi təhriflərin, yalanların düzəldilməsi yolunda mücadilə edib.

O, siyasi və dini bir mühitdə böyümüşdü. Hələ tələbəlik illərindən geniş miqyaslı siyasi və ictimai fəaliyyətə başlamışdı.

1993-cü ilin 31 dekabr günü Azərbaycan Respublikasının Tehrandakı səfirliyində Yeni il və Dünya Azərbaycanlılarının həmrəylik gününə həsr olunmuş tədbirdə iştirak edən Dr.Cavad Heyət özünün çox qısa və yığcam təbrik nitqində bunları söylədi: "Bu gün ən müqəddəs gündür. Bu gün ulu Peyğəmbərimizə peyğəmbərliyin verilən (*məbəs*) günüdür. Belə ki, by gün bütün İslam dünyasının bayramıdır. Eyni zamanda bu gün dünyadakı bütün azərbaycanlıların həmrəylik günü bayramıdır. Hamınıza sağlıq və uğurlar diləyirəm." O, bilirdi ki, bu sözləri hansı ölkədə, harada və kimlərin hüzurunda söyləyir.

Hər il yanvar ayının 20-də 1990-cı ildə baş vermiş "Qanlı Yanvar" faciəsinin qurbanlarının anım günündə Azərbaycan Respublikasının Tehrandakı səfirliyinə gələr, millətin acılarını bölüşər, Azərbaycan xalqına başsağlığı verər və onları işıqlı gələcəyin bir gün onların üzünə güləcəyinə ümuidvar edirdi...



Azərbaycan Respublikasının Tehrandakı səfirliyi. 20 yanvar 1994

İstanbulda və Parisdə təhsil aldığı, işlədiyi illərdə mənsub olduğu Vətənində xalqının ədəbiyyatı, dili, tarixi və incəsənəti qarşısında yaradılmış əngəllərin aradan qaldırılması ilə bağlı aramsız düşüncələrə dalar, bu yolda müəyyən işlər görməyin yollarını axtarardı. Pəhləvi sülaləsi tərəfindən İranda terrorçu rejimin yaradıldığı, qeyri-fars xalqlara, xüsusilə azərbaycanlılara münasibətdə amansız milli şovinist siyasətin həyata keçirildiyi, milli hüquqlar uğrunda mübarizə aparan minlərlə elsevər insanların, ziyalıların həbs edildiyi, işgəncə verildiyi bir şəraitdə dr. Cavad Heyət nüfuzlu bir həkim kimi İrana qayıtmışdı.

O, eyni zamanda Azərbaycanın tanınmış ruhanilərindən birinin - Əli Heyətin oğlu kimin tanınırdı. Əli Heyət Məşrutə inqilabı zamanında Nəcəf dini hövzəsinin səfiri sifətilə mötəbər bir heyətin başında Təbrizə gəlmişdi. Heyət soyadı da bu nəsil üçün həmin dövrdəki fəaliyyətin nəticəsi olaraq verilmişdi.

Dr. Cavad Heyətin atası Əli Heyət 1951-1953-cü illər İngilis-İran neft şirkətinin milliləşdirilməsi uğrunda gedən xalq hərəkatı dövründə ölkənin baş naziri M.Müsəddiqin rəhbərlik etdiyi

Nazirlər Kabinetində ədliyyə naziri olmuş və sonra Ali Məhkəmənin sədri təyin edilmişdi. Cavad Heyət də belə bir şəxsin yetişdirməsidir.

Elə bunun nəticəsi idi ki, siyasi simaya malik olmasını, siyasətçi ailəsində böyüməsini nəzərə alaraq, onu Tehrandakı polis xəstəxanasına rəis təyin etdilər. Burada çalışdığı müddətdə vəzifəsindən və nüfuzundan istifadə edən dr. Cavad Heyətin verdiyi istiqamətləndirici məsləhətlər və mənəvi yardımlar nəticəsində Qulamhüseyn Saedi və bu kimi bir çox insansevərlərin və siyasi mübarizlərin azadlıq qazanması Pəhləvi rejimi dövründə dillər əzbəri olmuşdu. Polis xəstəxanasında rəis olmasına baxmayaraq, o, ardıcıl və davamlı şəkildə şahlıq üsul-idarəsini, onun milli şovinist, antiazərbaycan və antitürk siyasətini tənqid etdi.

Dr.Cavad Heyət həm də transmilli mədəniyyətin böyük təmsilçilərindən biri kimi Yaxın və Orta Şərqdə dərin hörmət qazanmışdı. C.Heyət türk dünyasında İslamın yerini və rolunu, İran və Avropa mədəniyyətlərini dərin əsaslarla öyrənib mənimsəmiş təvazökar, yumşaq xasiyyətli, əyilməz, geniş kültürü bir mütəfəkkir və ziyalı idi.

Belə bir simaya malik olmasının nəticəsi idi ki, regionda Süleyman Dəmirəl və Heydər Əliyev kimi məşhur şəxsiyyətlərlə möhkəm və davamlı dostluq əlaqələri qura bilmişdi. Bu dostluq, əsasən, transmilli mədəniyyət əlaqələri üzərində qurulmuşdu. O, bütün bu əlaqələri iranlı bir diplomat kimi, bu ölkənin mədəni səfiri kimi icra edirdi. Dr.Cavad Heyət İranın, Türkiyənin və Azərbaycanın dövlət və hökumət rəhbərləri tərəfindən qəbul olunmuş, ölkələrarası elmi-mədəni əlaqələrin inkişafı ilə bağlı məsləhətləşmələrdə yaxından iştirak edib. Azərbaycan Respublikasının qurucusu Ulu öndər H.Əliyev dr. Cavad Heyətin şəxsi təqdimatı olduğu təqdirdə,

Bakının ən mötəbər universitetlərində müxtəlif ixtisaslar üzrə pulsuz təhsil almaq üçün ildə 20 nəfər iranlı tələbəyə yer ayrılması barədə müvafiq orqanlara tapşırıq da vermişdi.

Cavad Heyət Qarabağ məsələsi ilə bağlı Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinə çatdırılmasında əvəzsiz fədakarlıqlar göstərib. Qarabağda ermənilər tərəfindən həyata keçirilən azərbaycanlıların soyqırımı bu narahat ürəyin sahibinə dinclik vermirdi. Bu milli faciənin qarşısının alınması üçün hər vasitəyə əl atan, İrandakı Qarabağ Müsəlmanlarına Yardım Komitəsinin sədri Cavad Heyət dünyanın bəzi dövlət başçılarına, o sıradan İran və Türkiyə prezidentlərinə müraciətdən belə çəkinmədi. Onun böyük ürək ağrısı ilə Türkiyənin sabiq prezidenti cənab Süleyman Dəmirələ yazdığı açıq məktubundakı bu sözləri həyəcansız oxumaq mümkün deyil: "Mən bu sətirləri göz yaşlarımın qarşısını ala bilmədən yazıram və bu anda Allah-Təaladan xalqımıza qurtuluş, ya da özümə ölüm istəyirəm" ("Varlıq" dərgisi, 1994, No: 92-l, s.27). Cavad Heyət həmin məktubunda Azərbaycanı düşdüyü indiki fəlakətli vəziyyətdən çıxarmaq üçün səyləri gücləndirməyə, "böyük dövlətlərin silahları ilə təpədən-dırnağadək silahlanmış ermənilər qarşısında azərbaycanlıları müdafiə edib, soyqırımına mane olmağa" çağırır.

C.Heyət Tehranda “Qarabağ Müsəlmanlarının Müharibə Qurbanlarına Yardım Komitəsi” adlı bir qurum təsis etmişdi. Həmin qurum tərəfindən toplanan yardımlar “Varıq” məktəbinin şair Savalan (Həsən Məcidzadə) kimi görkəmli nümayəndəsinin rəhbərliyi ilə bir neçə dəfə maşın karvanları ilə Bakıya çatdırılmışdır...


بتعالی

تعاونوا علی البر والتقوی ولاتعاونوا علی الاثم والعدوان

قبض کمك رسانی به مسلمانان جنگ زدهٔ قره باغ

قاراباغ مسلمانلارینا کؤمك قبضی

پرداخت کننده :

هیئت کمك به جنگ زدگان مسلمانان قره باغ

قاراباغ مسلمانلارینا کؤمك هیئتی

امضاء دریافت کننده :

Qarabağ müsəlmanlarına 2000 riallıq kömək qəbzi

C.Heyət ensiklopedik məlumatlı, eyni zamanda prinsipial, azadlığı və həqiqəti hər şeyin üstündə tutan, xalqını, vətənini, dilini və mədəniyyətini çox sevən bir şəxsiyyət idi.

Dr. Cavad Heyəti müasir Azərbaycan tarixinin ən böyük simalarından biri hesab etmək olar. O, son 100 ildə Azərbaycanın ən yadda qalan şəxsiyyətlərindəndir.